

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 162 (21.823)

*26 avqust 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" QSC-nin nəzdində yaradılan "Buta Airways" aviaşirkətinin Bakıya gətirilən ilk "Embraer 190" təyyarəsi ilə tanış olub.

Dövlətimizin başçısına "Embraer 190" təyyarəsi barədə məlumat verilib. Bildirilib ki, ekonom sinif modifikasiyalı bu təyyarə 106 sərnişin tutumuna malikdir. "Buta Airways" ən çox tələb olunan istiqamətlərə uçuşlar yerinə yetirəcək. Sentyabrın 1-dən etibarən Bakıdan Moskva, Kiyev, Antalya, Kazan, Mineralnıye Vodı, Tbilisi və Tehrana, oktyabrın 29-dan isə tətbiq ediləcək qış uçuş cədvəlinin başlamasıyla Bakıdan İstanbula və Sankt-Peterburqa, eləcə də Gəncədən Moskvaya uçuşlar olacaq. Bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir.

Yaxın günlərdə şirkətin daha bir yeni "Embraer 190" təyyarəsinin Bakıya gətirilməsi nəzərdə tutulur. Ümumilikdə isə aviaşirkətin hava gəmiləri parkındakı "Embraer 190" təyyarələrinin sayı 8-ə çatdırılacaq. Bu layihənin icra edilməsi ölkə vətəndaşlarının daha ucuz qiymətə dünyanın müxtəlif şəhərlərinə səyahət etməsinə imkan yaratmaqla yanaşı, Azərbaycana turist axınının artmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcək.



## F.N.Ələkbərovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fazil Nəriman oğlu Ələkbərov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 avqust 2017-ci il*

## F.N.Ələkbərovun Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fazil Nəriman oğlu Ələkbərov Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 avqust 2017-ci il*

## Naxçıvan şəhərində təhsil yarmarkası keçirilib

*Avqustun 25-də Naxçıvan şəhərində təhsil yarmarkası keçirilib.*





Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, təhsilin inkişafı sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində son illər 200-dən çox təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə, o cümlədən kompüter və elektron lövhələrlə təchiz olunub. Hazırda da bu sahədə işlər davam etdirilir.

Qeyd olunub ki, kənd yerlərindəki təhsil müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər, stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib. Belə ki, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş, kənd yerlərindəki təhsil müəssisələrində yeni əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti davam etdirən 35 yaşadək gənc mütəxəssislər kommunal xidmətlərini ödəmək üçün 60 manat, rayon mərkəzindən 20 kilometrdən artıq məsafədə yerləşən ümumtəhsil müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində əməkhaqqına hər ay 100 manat məbləğində əlavələr ödəniləcəkdir. 3 illik müddət bitdikdən sonra həmin və ya digər kənd məktəbində pedaqoji fəaliyyətini davam etdirən gənc mütəxəssislərə daha 2 il müddətində əməkhaqqına kompensasiya əlavə olunacaqdır. Eyni zamanda iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım ödəniləcəkdir.

Rəhman Məmmədov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə diaqnostik qiymətləndirmədən keçmiş müəllimlərin həftəlik dərs yükü və aylıq vəzifə maaşları artırılıb. Bununla yanaşı, bu ildən etibarən uçqar dağ kəndlərində pedaqoji fəaliyyətə başlayan gənc kadrların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən ipoteka kreditlərinin verilməsi qaydalarında dəyişikliklər edilib. Yeni qaydalara əsasən 5 ildən artıq dağ kəndində müəllim kimi fəaliyyət göstərən pedaqoji profilli gənc kadrlara ipoteka kreditinin verilməsi nəzərdə tutulub. Bütün bunlar isə ölkəmizdə gənc mütəxəssislərə və ümumilikdə, gəncliyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Gənc kadrların işlə təminatı üçün muxtar respublikada dövlət qulluğuna qəbul imtahanları, eləcə də əmək yarmarkaları keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə keçirilən təhsil yarmarkası da artıq ənənə halını alıb. Bu yarmarka muxtar respublikanın, xüsusən də uçqar kəndlərin ümumtəhsil məktəblərinin pedaqoji kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynayır. Ötən müddət ərzində yüzlərlə gənc bu təhsil yarmarkasında iştirak edib və göndəriş alaraq bu gün də müəllim kimi fəaliyyət göstərir. Bu il təşkil edilən təhsil yarmarkasında Şərur rayonu üzrə 112, Babək rayonu üzrə 30, Ordubad rayonu üzrə 67, Culfa rayonu üzrə 37, Kəngərli rayonu üzrə 44, Şahbuz rayonu üzrə 18, Sədərək rayonu üzrə 25 olmaqla, ümumilikdə, 333 boş iş yeri təqdim olunmuşdur. Təqdim olunan boş iş yerlərinin əksəriyyəti kəndlərdəki ümumtəhsil məktəblərindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov gənc müəllimlərə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxışında bildirib ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsil sahəsi də dövlət qayğısı ilə əhatə olunub. Təkcə 2017-ci ilin birinci yarımili ərzində 2716 şagird yerlik beş tam orta məktəb binası tikilib və ya əsaslı şəkildə yenidən qurularaq şagird və müəllimlərin istifadəsinə verilib.

Qeyd olunub ki, ötən müddət ərzində yüzlərlə gənc kadr uçqar dağ kəndlərində müəllim kimi pedaqoji fəaliyyətə başlayıb, onların köməkliyi sayəsində şagirdlərimiz elmi biliklərə daha da dərindən yiyələniblər.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın ayrı-ayrı təhsil müəssisələri üzrə boş iş yerlərinin qeydiyyatı aparılıb, rayon (şəhər) Təhsil şöbələri üzrə mövcud boş yerlər haqqında məlumatlar "Şərq qapısı" qəzetində dərc edilib. Müəyyən edilib ki, muxtar respublikanın ümumtəhsil məktəblərində 27 Azərbaycan dili və ədəbiyyatı, 82 xarici dil, 25 riyaziyyat, 19 informatika, 16 tarix, 34 coğrafiya, 21 fizika, 20 kimya, 22 biologiya, 11 fiziki tərbiyə, 4 Gənclərin çağırışaqədərki hazırlığı, 4 musiqi, 4 təsviri incəsənət, 1 texnologiya, 43 ibtidai sinif müəlliminə ehtiyac vardır.

Gənc kadr İnci Seyidova yaradılmış şəraitə görə minnətdarlığını bildirib.

Sonra yarmarkaya gələnlər vakant iş yerləri ilə tanış olublar.

## Muxtar respublikada ənənəvi məktəbli yarmarkaları təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi məktəbli yarmarkası təşkil olunub.*

Avqustun 25-də bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək deyib ki, muxtar respublika rəhbərinin tapşırığına əsasən bu gündən etibarən Naxçıvan şəhərində və rayonlarda məktəbli yarmarkası fəaliyyətə başlayır. Bu qəbildən yarmarkaların təşkil edilməsi artıq ənənə halını alıb. Yarmarka yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan ehtiyaclarını daha asan şəkildə təmin etmələrində mühüm rol oynayır.

Qeyd edilib ki, muxtar respublikada sahibkarlar üçün yaradılmış əlverişli şəraitin nəticəsində daxili bazarda yerli istehsalın çəkisi ildən-ilə artır. Sevindirici haldır ki, bu, məktəbli geyimlərinin istehsalında da özünü göstərir. Muxtar respublikada məktəbli geyimlərinə olan tələbat tam olaraq yerli istehsal hesabına ödənilir. Bu gün təşkil edilən məktəbli yarmarkalarında da muxtar respublikada istehsal olunmuş məktəbli geyimləri əhaliyə təklif edilir. Yarmarka Naxçıvan şəhərində və rayonlarda sentyabrın 15-dək fəaliyyət göstərəcək.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, təhsil naziri Məmməd Qəribov və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış ediblər. Çıxışlarda qeyd edilib ki, bu gün muxtar respublikada məktəbli geyimləri, köynək, ayaqqabı istehsalı olmaqla, 4 yüngül sənaye müəssisəsi fəaliyyət göstərir. Cari ildə 3-ü istehsal müəssisəsi olmaqla, 21 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası və ayaqqabıları və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur. Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışına da geniş yer ayrılıb. Burada satılan lüğət və digər nəşrlərə, dünya uşaq ədəbiyyatı nümunələrinə, bədii və elmi ədəbiyyata alıcılar böyük maraq göstərirlər.

Sonra yarmarkaya gələnlər satışa çıxarılan məhsullarla tanış olublar. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanıb.

Valideynlər belə yarmarkaların təşkil olunmasına görə minnətdarlıqlarını bildiriblər.

**"Şərq qapısı"**

*Yol mədəniyyət, yol inkişaf, yol həyat deməkdir. Ona görə də deyirlər ki, hər bir yaşayış məntəqəsinin siması onun yolundan bilinir. Yol iqtisadiyyatın inkişafında mühüm rol oynayan vasitələrdən biridir. Yol tikintisi layihələrinin uğurla icra olunmasının ölkənin sosial-iqtisadi həyatında önəmli rol oynadığını vurğulayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Ölkəmizin hərtərəfli inkişafı üçün yol infrastrukturu da böyük rol oynayır. Yolların tikintisi məsələləri daim diqqət mərkəzində olmuşdur. İlk növbədə magistral yollardan, ondan sonra şəhərlərarası, daha sonra kəndlərarası, kənddaxili yollardan başladıq. Bu gün bu proses geniş vüsət almışdır. Hər bir rayonda yol layihələri icra edilir... Həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan kənd yollarının tikintisinə böyük vəsait ayrılır, ayrılacaqdır. Bizim bütün kəndlərimizdə asfalt yollar, yaxşı yollar olmalıdır və olacaqdır".***

# Yol salmaq, su çəkdirmək ən xeyirxah işdir

## *Muxtar respublikamızda bu istiqamətdə görülən işlər uğurla davam etdirilir*





Neçə illərdir ki, əsl quruculuq ünvanına çevrilmiş muxtar respublikamızda son illər bu istiqamətdə xeyli iş görülüb, paytaxt şəhərimiz Naxçıvandan tutmuş ən ucqar sərhəd və dağ kəndlərimizdə bu gün müasir yol infrastrukturu qurulub. Uzunluğu 82 kilometr olan dördzolaqlı Naxçıvan-Sədərək magistralı, Təzəkənd-Çalxanqala-Qıvraq, Çeşməbasar-Boyəhməd avtomobil yolları müasirliyi ilə diqqəti çəkir. Böyük İpək Yolunun bərpası istiqamətində 8 kilometrdən çox uzunluğu olan Naxçıvan dairəvi avtomobil yolu, 32 kilometr uzunluğunda Naxçıvan-Culfa magistralı bu istiqamətdə həyata keçirilən tədbirlərin bariz ifadəsidir. Muxtar respublikada aparılan yol quruculuğu Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunu da müasirliyə qovuşdurub. Bununla Culfa rayonunun Əlincəçay vadisi boyunca yerləşən və 25 sakinin yaşadığı 20 kəndi, Kəngərli rayonunda 12 min insanın yaşadığı 5 kəndi, Hacıvar-Vayxır-Sirab istiqamətində 18 min sakinin yaşadığı 13 kəndi birləşdirən yollarda intensiv və təhlükəsiz hərəkət təmin edilib. 31 min nəfərdən çox insanın yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd yolu da yol təsərrüfatına göstərilən qayğının ifadəsidir.

Bu tədbirlərin davamı kimi, avqustun 18-də Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhəri ilə birləşdirən avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Adıçəkilən kəndlərin sakinlərinin böyük sevincinə səbəb olan və həmin yaşayış məntəqələrini Naxçıvan şəhərinin Xətai məhəlləsi ilə birləşdirən avtomobil yolunun uzunluğu 13,3 kilometrdir. Yolda xeyli yenidənqurma tədbirləri həyata keçirilib. Yol yatağı genişləndirilib, asfalt örtük salınıb. Görülən işlərin keyfiyyətinə ciddi diqqət yetirilib. Yenidənqurma çərçivəsində 114 su keçidi qoyulub, yolun yaşayış məntəqələrindən keçən hissəsində 2 min 160 metr məsafədə beton kanal çəkilib, 1400 metr kənddaxili yollar da yenidən qurulub.

Daha bir quruculuq tədbiri isə həmin yaşayış məntəqələrində yeni içməli su və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsidir. Şıxmahmud və Xəlilli kəndlərində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi "Su təchizatı və kanalizasiya investisiya Proqramı layihə-2" üzrə qənaət olunmuş vəsait hesabına həyata keçirilib. 2016-cı ilin yanvar ayında başlanılan tikinti işləri çərçivəsində hər iki kənddə, ümumilikdə, 37,3 kilometr uzunluğunda müxtəlif diametrli borularla içməli su xətti çəkilib, 1103 evə su verilərək sayğac quraşdırılıb. Bununla 4 mindən artıq sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilib. Su şəbəkəsinin üzərində 7 yanğın hidrantı və 3 suboşaldıcı qoyulub. Şıxmahmud və Xəlilli kəndlərində müxtəlif diametrli borularla 34,5 kilometr uzunluğunda kanalizasiya xətləri də çəkilərək bütün mənzillər şəbəkəyə qoşulub.

Həmin yaşayış məntəqələrində bundan sonra əkin sahələrinin suvarılmasında da heç bir problem olmayacaq. Bunun üçün Uzunoba Su Anbarından sugətirən 1800 metr uzunluğundakı kanal yenidən qurularaq betonla üzlənib. Yeni içməli su və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: ***"Bu gün Şıxmahmud və Xəlilli kəndlərinin həyatında əlamətdar gündür. Çünki su həyat, yol abadlıq və rahatlıq, kanalizasiya sistemləri isə təmizlik və sağlamlıq deməkdir. Bütün bunlara Şıxmahmud və Xəlilli kəndlərində nail olunub. Naxçıvan şəhərində içməli su təchizatı və kanalizasiya layihəsi üzrə işlər keyfiyyətlə başa çatdırıldı. Həmin layihədən qənaət olunmuş vəsait hesabına Şıxmahmud və Xəlilli kəndlərində yeni içməli su və kanalizasiya şəbəkəsi quruldu. Aparılan abadlıq-quruculuq işlərindən sonra hər iki kənd şəhərtipli qəsəbəyə çevrilmişdir".***

Adıçəkilən yaşayış məntəqələrində həyata keçirilmiş quruculuq tədbirlərinə sakinlərin münasibətini öyrənmək məqsədilə həmin kəndlərdə olduq. Şıxmahmud kənd tam orta məktəbinin tarix müəllimi Novruz Mehdiyev dedi ki, muxtar respublikamızda həyata keçirilən tədbirlərin əsasında insanların rahat yaşayışı dayanır. Regionun bütün yaşayış məntəqələrində müasir infrastruktur yaradılır. Son illər şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də içməli su və kanalizasiya sistemlərinin istifadəyə verilməsi muxtar respublikamızda insan amilinə göstərilən qayğının ifadəsi kimi sakinlər tərəfindən yüksək qiymətləndirilir. Bizə göstərilən belə qayğıya görə kənd sakinləri adından dərin minnətdarlığımı bildirirəm.

Kəndin digər bir sakini Qaçay Aslanov: – Neçə illərdir ki, muxtar respublikamızda kənd yaşayış məntəqələrinin abadlaşması, müasir yolların çəkilməsi, su-kanalizasiya sistemlərinin qurulması və insanların rahat yaşayışının təmin olunması üçün müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlər o yerlərdə görülür ki, orada sabitlik və inkişaf olsun. Ölkəmizdə bunun təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Görkəmli dövlət xadiminin Azərbaycana hər iki rəhbərliyi dövründə bu siyasət öz bəhrəsini verib. Bu gün Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ulu öndərin yoluna sədaqətini həyatımızın bütün sahələrinin inkişafında görmək mümkündür. Şıxmahmud kəndində həyata keçirilən tədbirlər bir daha bunu göstərir ki, ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız sürətli inkişaf yolundadır. Bu inkişafın nəticəsidir ki, kəndimizdə kompleks quruculuq tədbirləri həyata keçirilib, insanların rahat və firavan yaşayışı təmin olunub. Şıxmahmudlular onlara göstərilən belə qayğıya əməli işləri ilə cavab verəcəklər.

Xəlilli kənd sakini Yaşar Əliyev: – Şıxmahmud və Xəlilli kəndlərində son illər xeyli abadlıq-quruculuq işləri aparılıb, yeni sosial obyektlər tikilərək istifadəyə verilib. Övladlarımızın yaxşı təhsil alması, sakinlərin sağlamlıqlarının qorunması sahəsində görülən işlər, xidmət sahələrinin istifadəyə verilməsi, elektrik, rabitə və qaz xətlərinin yenilənməsi, məşğulluğun və rahat yaşayışın təmin olunması kəndləri müasir görkəmə qovuşdurub. Bu işlərin davamı olaraq Şıxmahmud-Xəlilli-Naxçıvan şəhər avtomobil yolunun, içməli su və kanalizasiya sistemlərinin istifadəyə verilməsi isə sakinlərin daha böyük sevincinə səbəb olub. Yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımızı bildiririk.

Zeyqəm Hacıyev: – Yaşayış məntəqələrində quruculuq işlərinin aparılması, insanların yaşayış tərzinin daha da yaxşılaşdırılması bir məqsədə – dövlətimizin daha da möhkəmlənməsinə və inkişafına xidmət edir. Ölkəmizin ən qiymətli sərvəti onun insanlarıdır. İnsanlara qayğı isə bu gün yüksək səviyyədədir. Son illərdə kəndlərimizdə həyata keçirilən kompleks tədbirlər də bunun məntiqi nəticəsidir və hamımızı sevindirir.

*Qeyd edək ki, hər iki kənddə sakinlərin əsas məşğulluq sahəsi kənd təsərrüfatıdır. İnsanlar əkinçiliklə məşğul olur, bol məhsul istehsal edirlər. Torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə Uzunoba Su Anbarından sugətirən kanalın yenidən qurulması sudan səmərəli istifadəyə və əkin sahələrinin daha da genişləndirilməsinə, bol və keyfiyyətli yerli məhsul istehsalına, əhalinin məşğulluğunun təmin olunmasına imkan verəcək.*

**Muxtar MƏMMƏDOV**

# Naxçıvan Biznes Mərkəzi sahibkarlığın inkişafına öz töhfəsini verir

***Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində yeni biznes əlaqələrinin qurulması və işgüzar görüşlərin keçirilməsi, sahibkarların maarifləndirilməsi, muxtar respublikada istehsal olunan məhsulların nümayiş etdirilməsi üçün ideal bir məkan – Naxçıvan Biznes Mərkəzi artıq uzun müddətdir ki, uğurla fəaliyyət göstərir. Naxçıvan şəhərinin bütün ünvanlarına rahat çıxışı olan bu məkanda sahibkarların aktiv iş fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.***



Mərkəz 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya mərkəzi kimi fəaliyyətə başlayıb. 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirir.

2013-cü ildə istifadəyə verilən mərkəzin əsas fəaliyyət istiqamətləri biznesin inkişafı, sahibkarlar arasında işgüzar əlaqələrin gücləndirilməsi, müxtəlif tədbirlərin, beynəlxalq konfransların, forum və seminarların keçirilməsi, yerli istehsal məhsullarının, əl işi və sənət əsərlərinin sərgi-satışının təşkilidir.

Naxçıvan Biznes Mərkəzinin əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes planların hazırlanmasında metodiki dəstək göstərməkdir.

Hazırda mərkəzdə müasir avadanlıqlarla təchiz edilən 100 nəfərlik iclas və 500 nəfərlik konfrans zalları və eyni zamanda 4 dildə sinxron tərcümənin aparılması üçün otaq mövcuddur.

Mərkəzdə ingilis və rus dillərini bilən ixtisaslı kadrlar çalışırlar. Bu da bura gələnlərə sərgilərlə, o cümlədən mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq imkanı yaradır.

Ötən günlərdə mərkəzin fəaliyyəti və burada yaradılan pavilyonlarla tanış olmaq üçün adıçəkilən ünvanda olduq. İlk olaraq qeyd edək ki, burada qurulan pavilyonlarda muxtar respublikanın son illərdə keçdiyi inkişaf yolu, sosial-iqtisadi göstəriciləri, infrastruktur quruculuğu istiqamətində görülən işlər, özəl sektorun inkişafı naminə həyata keçirilən tədbirlər öz əksini tapıb.

Öyrəndik ki, mərkəzin sərgi salonunda məhsullarının sərgilənməsi üzrə 4 yeni istehsalçı şirkətlə müqavilə bağlanıb. Stendlərin quraşdırılması daha çox müəssisənin məhsullarının sərgilənməsinə şərait yaradıb və hazırda yeni müəssisələrin cəlb olunması istiqamətində iş aparılmaqdadır.

Bağlanılmış müqavilə şərtlərinə müvafiq olaraq 84 müəssisəyə iqtisadi yönümlü və hər birinin fəaliyyət sahəsinə uyğun 200-ə yaxın informasiya ötürülməsi təmin edilib. Bu sahədə iş davamlı olaraq həyata keçirilməkdədir.

Sahibkarlığın genişləndirilməsi, hüquqi və maarifləndirici istiqamətdə xidmət göstərilməsi sırasında onların müraciətləri əsasında sahibkar subyektləri üçün kiçikhəcmli kənd təsərrüfatı yönümlü, irihəcmli müxtəlif sahələrə aid, ümumilikdə, 20 biznes-planın işlənilməsinə mərkəz tərəfindən dəstək verilib.

Xalq yaradıcılığının inkişaf etdirilməsi, el sənətkarlarının fəaliyyətinin daha da stimullaşdırılması və əl işlərinin sərgi-satış üçün qəbul edilməsi istiqamətində davamlı iş aparılıb. Cari ilin ilk 6 ayında 18 fiziki şəxslə iş aparılmış, sərgi-satış məqsədilə ümumi dəyəri 1583 manat olan 205 adda iş satışa çıxarılıb. Bu müddətdə 103 ədəd 1926,50 manat dəyərində əl işlərinin satışı həyata keçirilib. Xalq yaradıcılığı emalatxanasında 19 ədəd xalça toxunub.

Qeyd olunan dövrdə mərkəzdə, ümumilikdə, 30-a yaxın tədbir keçirilib. Onu da qeyd edək ki, 2017-ci ilin 18-26 mart tarixlərində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən Novruz bayramı şənliklərində mərkəz tərəfindən xalçaçılıq, papaqçılıq, ağac üzərində oyma, dekorativ-tətbiqi sənət, rəssamlıq, xəttatlıq, mis üzərində döymə və dulusçuluq sahələri üzrə əl işləri və sənət əsərlərinin sərgi-satışı həyata keçirilib. Yerli sənətkarların burada nümayiş olunan əl işləri tədbir iştirakçılarının marağına səbəb olub.

Bu gün muxtar respublikada istehsal olunan məhsulların, eləcə də el sənətkarlarının hazırladıqları əl işləri və sənət əsərlərinin daha geniş məkanda təbliğ edilməsi və onların satışının təşkili məqsədilə şəhərin mərkəzində yerləşən əl işlərinin satışı mərkəzlərinin, Əshabi-Kəhf ziyarətgahında və Duzdağ Fizioterapiya Mərkəzindəki satış məntəqələrinin fəaliyyəti öz töhfəsini verir.

Naxçıvan Biznes Mərkəzində hazırda muxtar respublikamızın 96 istehsal müəssisəsinin 900-dən çox müxtəlif məhsulları nümayiş olunur. Muxtar respublikamızdakı iri özəl sektor təmsilçiləri olan "Gəmiqaya Holdinq", "Dizayn Holdinq", "Araz Holdinq", "Cahan Holdinq", "Zümrüd" Kiçik Müəssisəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Ümumiyyətlə, bu gün tam əminliklə demək olar ki, Naxçıvan Biznes Mərkəzi son illərdə muxtar respublika sənayesinin, xalq sənətkarlığının, bir növ, güzgüsünə çevrilib. Buraya gələn hər bir xarici qonaq heç bir istehsal müəssisəsinə getmədən muxtar respublikanın özəl sektoru haqda dolğun məlumat ala bilir. Mərkəzdə nümayiş etdirilən, yüksək keyfiyyəti ilə seçilən, nəfis tərtibatla qablaşdırılan, insan əməyinin, göz nurunun, alın tərinin nəticəsi olan hər bir məhsul son illərdə doğma yurdumuzda sahibkarlığa göstərilən dövlət qayğısının bariz nümunəsidir.

**Ramiyyə ƏKBƏROVA**

*Vətənin keşiyində*

## Sərhəd dövlətimiz üçün müqəddəsdirsə, sərhədləri qorumaq isə şərəfli bir işdir



***İctimai nəqliyyatda rastlaşdığım bir hadisə indiyədək yadımdadır. 5-6 yaşlarında bir oğlan uşağı anasının yanında ipə-sapa yatmırdı. Yanımda əyləşən ağsaqqal bu an uşağı dilə tutmağa başladı. “Balaca, de görüm böyüyəndə kim olacaqsan?” Bayaqdan anasına dinclik verməyən oğlanın, – “Baba, mən böyüyəndə əsgər olacağam”, – deyə cavab verməsi qəlbimdə sonsuz qürur hissi doğurdu. Əlbəttə, o yaşda vətənpərvərliyin nə demək olduğunu, Vətənin haradan başlandığını dərk edə biləcək düşüncəyə malik olmayan balacanın birdən-birə belə cavab verməsi bu gün Azərbaycan ailəsində böyüyən nəslin əsl vətənpərvərlik ruhunda tərbiyə edilməsinə əyani misaldır. İllər ötəcək və həmin uşaq da yaşa dolduqca Vətənə sevgi adlı ülvi hissləri dərindən dərk edəcək. Və bir gün özü də əsgər gedəcək, and içərək hərbi xidmətə başlayacaq. Gecənin bir aləmində əldə silah Vətən sərhədlərinin keşiyində duracaq və o an bütün varlığı ilə hiss edəcək ki, o da vətənpərvərdir və Vətəni üçün doğulub.***

### *Müasir sərhəd infrastrukturu yaradılıb*

***“Sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın hörmət və ehtiramına layiqdir”.*** Bəli, ulu öndər Heydər Əliyevin bu fikirləri sərhədçi peşəsinin nə qədər çətin və şərəfli bir sahə olmasından xəbər verir. Elə muxtar respublikanın dövlət sərhədini mühafizə edənlər də bir amala xidmət edirlər: sərhədləri göz bəbəyi kimi qorumaq. Buna əsas verən başlıca amil ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda bu sahədə apardığı işlər olmuşdur. Dahi rəhbər ölkəmizdə ali hakimiyyətə qayıtdıqdan sonra da bu sahənin inkişafı aparılan dövlət siyasətinin mühüm bir istiqamətini təşkil edib.

Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sərhəd infrastrukturu tamamilə yenilənib. Son illərdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında aparılan quruculuq işləri davamlı xarakter alıb. Ən müasir tələblərə uyğun zastavaların tikilməsi, yeni inzibati binaların və zabit-gizir ailələri üçün nəzərdə tutulmuş mənzillərin məişət şəraitinin yaxşılaşdırılması sərhəd qoşunlarının formalaşması və inkişafına təkan verib. 2015-2016-cı illər ərzində diviziyanın yaşayış şəhərciyinin binası da əsaslı təmir olunub, ərazidə abadlıq işləri görülüb, müasir tələblərə cavab verən yeni uşaq bağçası inşa edilib. Bu yaxınlarda “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaradılmasının 25-ci ildönümünün yüksək səviyyədə qeyd olunması, xidmətdə fərqlənənlərin əməyinin qiymətləndirilməsi bu qoşun növünün Silahlı Qüvvələrin tərkibində mühüm əhəmiyyət daşıdığını göstərir. Yubiley tədbirində iştirak edən Ali Məclisin Sədri cənab Vasif Talıbov sərhədçiləri təbrik edərək demişdir: ***“Sərhəd dövlətimiz üçün müqəddəsdirsə, sərhədçi olmaq, sərhədləri qorumaq isə şərəfli işdir. Hər bir sərhədçi öz xidməti ilə nümunə göstərməli, sərhədlərin mühafizəsinə həmişə hazır olmalıdır”.***



### *Vətən keşikçiləri ilə görüş*

Hərbi hissə zabitinin müşayiəti ilə avtomobilimiz sərhədlərimizin Kəngərli rayonu ərazisində yerləşən “N” sərhəd zastavası istiqamətində irəliləyir. Təcrübəli sərhədçi, kapitan Muxtar Ağayev uzun yola söhbəti ilə körpü salır. Deyir ki, illərdir, sərhəd qoşunlarında xidmət edirəm. Əvvəllər sərhədçilərə bu cür şərait yaradılmamışdı. Müstəqillik illərindəki uğurlar bizim də sahəni əhatə etdi. Bu gün sərhəd zastavalarında yüksək sosial məişət şəraiti mövcuddur. Xidmətin təşkili ilə bağlı sualımızı isə məsul zabit belə cavablandırır: “Səbirli olun, zastavaya yaxınlaşırıq. Sizi maraqlandıran, düşündürən nə varsa, orada aydınlıq gələcək”.

Beləcə, xidməti kompleksə qədər uzanan rahat yolu başa vurub əraziyə daxil oluruq. Məsul zabit söhbətə belə davam edir: “Bölmə müasir texnika, avadanlıq və ləvazimatlarla təmin olunub, şəxsi heyətin peşəkarlığı artırılıb, yeni sərhəd infrastrukturu yaradılıb. Bütün bunlar isə sərhədlərimizin etibarlı şəkildə qorunmasına geniş imkanlar açır”.

Yataqxana binasına daxil oluruq. Təbii ki, nümunəvi xidmətin əsasında elə nümunəvi şərait dayanır. Binanın daxilindəki səliqə-sahman, məişət otaqlarındakı şərait birbaşa Azərbaycan sərhədçisinin rahatlığına hesablanıb. Baş leytenant Fərid Manaflı ilə həmsöhbət oluruq. Xatırladaq ki, gənc sərhədçi Ali Məclis Sədrinin 2017-ci il 21 avqust tarixli Sərəncamına əsasən “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif olunub. Müsahibimiz deyir ki, sərhədlərimizin toxunulmazlığı qoynunda göz açdığımız Vətən torpağının toxunulmazlığı deməkdir. Bu Vətəni sevməklə bərabər, onu qorumaq, təhlükəsizliyini təmin etmək də şərəfli bir missiyadır. Bu gün diviziyanın xidməti zastavalarında həm də zabit-gizir ailələri üçün yaşayış binaları tikilib. Yüksək məişət şəraiti ilə əhatə olunmağımız bizi daha yaxşı xidmət etməyə sövq edir. Gənc zabit onu da əlavə edir ki, muxtar respublikada sərhəd xidmətində səmərəli fəaliyyət göstərənlərin əməyi qiymətləndirilir, onlara böyük etimad göstərilir. Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə biz sərhədçilər üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizə dərin minnətdarlığımı bildirirəm.







### *Xidməti fəaliyyətin təşkili*

Burada şəxsi heyət “Qalx” komandasından sonra üzərinə düşən xidməti vəzifənin icrasına başlayır. Günün nizam qaydasına uyğun olaraq səhər idmanına düzülüş, ardınca isə idman şəhərciyində qurğularda müxtəlif idman hərəkətlərini yerinə yetirirlər.

Zastavada dövlət sərhədlərinin qorunması təmin edilir. Ardıcıl olaraq döyüş növbətçiləri döyüş tapşırığını yerinə yetirmək üçün zabit tərəfindən təlimat alırlar. Sonra ərazinin relyefi və yerləşmə sxemi barədə əsgərlərə məlumat verilir. Növbətçinin nəzarəti ilə silah yoxlanıldıqdan sonra onlar xidməti sahəyə yola düşürlər. Cəsur, inamlı və məğrur şəkildə sutka ərzində fasiləsiz olaraq aparılan müşahidənin nəticəsidir ki, dövlət sərhədində baş verə biləcək pozucu bir hərəkət dərhal öz layiqli cavabını tapır. Müşahidə qülləsində dayanan sərhədçi isə əldə silah zastavanın xidməti ərazisini müşahidə edir. Təhlükənin olub-olmadığını müəyyənləşdirir. Odur ki, müşahidə aparan əsgər öz fəaliyyətində yüksək diqqətə, həssaslığa və yenilməz döyüşçü qabiliyyətinə malik olmalıdır. Çünki Vətən sərhədləri daim diqqət tələb edir. Nəyin bahasına olursa-olsun, dövlət sərhədi pozula bilməz.

Şəxsi heyətin peşəkarlıq səviyyəsini artırmaq üçün əsgərlərə nəzəri və praktik məşğələlər keçirilir, onların asudə vaxtları səmərəli təşkil olunur.

* * *

Əsgərlərlə elə sinif otağında görüşürük. Əsgər Sabit Rzazadə Bakı şəhərindən hərbi xidmətə çağırılıb. Deyir xidmət etdiyim sərhəd zastavasında “bir nəfər hamı üçün, hamı bir nəfər üçün” şüarı əldə rəhbər tutulur. Möhkəm hərbi intizam, yüksək döyüş hazırlığı sayəsində dövlət sərhədində baş verə biləcək hər hansı bir təxribata tutarlı cavab verə bilərik. Bu gün Naxçıvan üç dövlətlə həmsərhəddir. Bu mənada, biz sərhədçilərin də üzərinə böyük məsuliyyət düşür.

Böyükkişi Abdullayev isə Ağcabədidəndir. Onun dediklərindən:

– Bu gün xidmət etdiyim sərhəd zastavası öz müasir görkəmi ilə diqqəti cəlb edir. Bölmədəki şərait bizim rahatlığımıza və nümunəvi xidmətimizə hesablanıb. Valideynlərim hər dəfə zəng edib vəziyyətimlə maraqlandıqda buradakı müasir şəraitdən ağızdolusu danışıram. Fəxr edirəm ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvanda xidmət edirəm və bu diyarın təhlükəsizliyinin təmin olunmasında mənim də əməyim var.

Bəli, bu gün dövlət sərhədlərimiz əmin əllərdədir. Azərbaycan sərhədçisi bir an olsun, diqqəti əldən vermir. Yenə əvvələ qayıdıram. Yazının başlığında haqqında bəhs etdiyim o balacanın da bir gün yolu buradan düşəcək, müqəddəs borcu yerinə yetirəcək, Vətənin keşiyini çəkəcək.

***Bir məqamı da xüsusilə vurğulamaq istərdim. Bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında ordu ilə xalq vəhdəti əsgərlərimizi qüsursuz, inamlı xidmətə aparan başlıca amillərdəndir. Fərqi yoxdur, Silahlı Qüvvələrin bütün qoşun növlərində bu tendensiya keçərlidir. Bu böyük birliyi, vəhdəti isə bundan sonra heç bir qüvvə qıra və sarsıda bilməz!***

**Muxtar RZAZADƏ**
*“Şərqin səhəri” qəzetinin redaktoru*

## Xalq artistinin yubileyi qeyd edilib



***Avqustun 25-də Naxçıvan Dövlət Filarmoniyasında tanınmış müğənni, Azərbaycan Respublikasının Xalq artisti Əzizağa Məmmədovun 60 illik yubileyi münasibətilə tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bildirib ki, qədim diyarımızda sənət adamlarına yüksək diqqət və qayğı göstərilir. Bu gün anadan olmasının 60 illiyini qeyd etdiyimiz Əzizağa Məmmədovun yubileyi də bu ənənələrin davam etdirilməsinin gözəl nümunəsidir.

Nazir Xalq artisti Əzizağa Məmmədovu 60 yaşının tamam olması münasibətilə təbrik edib, ona yaradıcılıq uğurları arzulayıb. Bildirilib ki, tanınmış müğənni həyatının 40 ilini musiqi mədəniyyətimizin inkişafına həsr edib. Erkən yaşlarından musiqiyə həvəsi onu Ordubad rayonunda fəaliyyət göstərən “Təravət” xalq çalğı alətləri ansamblına gətirib. Bir qədər burada çalışdıqdan sonra Naxçıvan şəhərinə gəlib. 1979-cu ildən Naxçıvan Dövlət Filarmoniyasının müğənnisi kimi fəaliyyət göstərib. Həyatını musiqiyə həsr edən istedadlı müğənni tez bir zamanda xalq və bəstəkar mahnılarını, təsniflərimizi özünəməxsus ifa etməklə tamaşaçı rəğbəti qazanıb. Onun repertuarındakı “Azərbaycan maralı”, “Sarı gəlin” və başqa onlarla xalq mahnısı bir sıra xarici ölkələrdə də səslənib və alqışlarla qarşılanıb. Müğənni xalq mahnı və təsniflərinin gözəl ifaçısı olmaqla yanaşı, həm də çoxsaylı bəstəkar mahnılarının ifaçısı kimi də tanınıb.

Qeyd olunub ki, Əzizağa Məmmədovu fərqləndirən bir cəhət də onun repertuarında həmişə Azərbaycan və qədim Naxçıvanımız, Vətən və dövlət sevgisi haqqında mahnıların əsas yer tutmasıdır. “Naxçıvan”, “Batabat”, “Nə gözəldir, Azərbaycan”, “Üçrəngli bayrağım”, “Azərbaycan oğluyam” və başqa mahnılar onun tərəfindən sevilə-sevilə oxunub.

Əzizağa Məmmədovun musiqi mədəniyyəti sahəsindəki xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 2003-cü ildə “Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti”, 2006-cı ildə “Azərbaycan Respublikasının Əməkdar artisti”, 2008-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb və Prezident mükafatçısı olub.

Tədbirdə Xalq artistinin sənət dostları Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Əliyev, Əməkdar incəsənət xadimi Kamal Əhmədov, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, tarzən Əkrəm Məmmədov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, tarzən Zöhrab Axundov və başqaları öz ürək sözlərini bölüşüblər.

Tədbirdə tanınmış müğənninin sənət dostlarının ifasında mahnılar və musiqi əsərləri səsləndirilib.

Sonda yubilyar Əzizağa Məmmədov çıxış edərək yaradıcılığına yüksək qiymət verildiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, musiqi mədəniyyətimizin inkişafı üçün bundan sonra da fədakarlıqla çalışacağını deyib.

**Əli RZAYEV**

## Yaşıllıqlara qulluq etməyi həyat tərzinə çevirən insan

### *Onu siz də tanıyın*
### *(Oçerk)*

***Yaşadığı kənddə hamı onu ağaclara böyük sevgisi ilə seçilən birisi kimi tanıyır. 67 yaşı var. Bu yaşınadək müxtəlif sahələrdə çalışsa da, ağac əkməyi, ona qulluq etməyi ən çox sevdiyi məşğuliyyət hesab edib, bununla nəfəs alıb. Həyatda çətinlikləri az olmayıb, təbiətə məhəbbəti hətta sağlamlıq imkanını da məhdudlaşdırıb – bir qolunu itirib. Ancaq ağac əkəndə sevinib, o boy atdıqca fərəhlənib, bar verdikcə arzusunun həyata keçdiyinə inanıb. Ağaclara öz övladı kimi yanaşıb, onların hər nazını çəkib, təkcə gündüzlər deyil, gecələr də onları yoluxub. Beləliklə, heç zaman əkilməyən şoranlaşmış torpaqlarda 5 hektarlıq bağ salmağa müvəffəq olub. Necə deyərlər, inadkarlığı və zəhməti bir araya gətirərək yararsız, boş çöllük ərazini gülüstana çevirməyi bacarıb. Bununla da, tək əllə necə səs çıxarmağı hər kəsə sübut edib.***





Kəngərli rayonunun Böyükdüz kəndində yaşayan Hümbət Həsənovla əvvəl kənddə, sonra isə əsl “iş yeri”ndə – Naxçıvan-Sədərək magistral yolunun kənarındakı bağda görüşdük. Söhbətə körpü salmaq üçün özünün həyat yolundan, bu işə necə könül verməsindən danışmağı xahiş etdik. Onun dediklərindən:

– Böyükdüz kəndinə 1966-cı ildə Şərur rayonunun Ərəbyengicə kəndindən köçmüşük. O zaman 16 yaşım vardı. Atamızı çox cavan ikən itirdiyimizə görə kiçik yaşlarımdan əməyə alışmışam, işləyib ailəyə kömək etmişəm. Hərbi xidmətdən sonra – o zaman Böyükdüz kəndinin yaxınlığında gəc istehsal edən bir sex vardı, orada işləməyə başladım. Bu sex indiki Naxçıvan-Sədərək magistralının kənarında yerləşirdi. Bu ərazilər şoranlıq olduğundan burada heç bir ağacı ərsəyə gətirmək mümkün deyildi. Ancaq mən sexin yaxınlığında əkdiyim bir neçə ağaca mütəmadi qulluq edərək onları böyüdə bilmişdim. Bu ağaclar mənim daim diqqətimdə idi. Günlərin bir günü işə gələndə gördüm ki, yaxınlıqda bir çoban sürünü ətrafa yayıb, qoyunlar da eləmə tənbəllik, yeni əkdiyim tinglərin çoxunun yarpaqlarını və şivlərini qoparıb yeyiblər. Buna görə də çobanla mübahisə etdik və gözləmədiyim anda qəfildən bıçaqla qoluma bir neçə zərbə endirdi. Sonra iş yoldaşlarım gəldi və köməklik edərək məni xəstəxanaya apardılar. Çoxsaylı bıçaq zərbələri qolumda böyük fəsadlar yaratmışdı. Müalicə üçün Bakıya göndərilsəm də, sonda həkimlər qolumun kəsilməsi ilə bağlı qərar verdilər. Bir müddət sonra Naxçıvana qayıtdım. Uzun müddət sağ qolumun yoxluğuna inanmasam da, sonralar reallıqla barışmalı oldum. Zamanla özümü sol əllə yemək yeməyə, yazmağa, işləməyə alışdırdım. Sonra kəndimizdəki poçt şöbəsində poçtalyon olaraq işə başladım. O zamanlar belə deyildi. Hər gün qəzetlər gəldikdən sonra onları dəstə ilə yığaraq kənddəki abunəçilərin evlərinə paylayırdım. Beləliklə, 40 ilə yaxın bir müddətdə poçtalyon olaraq çalışdım. Bu müddətdə ağac əkməkdən, onlara qulluq etməkdən heç yorulmadım. Nəhayət, indi gördüyünüz bu ərazidə – Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarında ağac əkməyə qərar verdim. Ərazinin torpağı şor olduğundan burada heç bir ağac olmurdu. Məndən əvvəl də bunu təcrübədən keçirənlər olmuşdu, ancaq heç nə əldə edə bilməmişdilər. İlk olaraq burada gilənar ağacları əkdim, onlara nə qədər qulluq etsəm də, istəyim baş tutmadı, hamısı qurudu. Ancaq həvəsdən düşmədim. Növbəti ildə burada söyüd, iydə, tut tingləri əkdim və davamlı olaraq suvardım ki, torpağın şoranlığı getsin. Düzdür, bir neçəsi qurusa da, salamat qalanları da oldu. Bundan sonra əkdiyim ağacların sayını daha da artırdım. Yol kənarındakı bu ağacları qorumaq digər tərəfdən ona görə çətin idi ki, Böyükdüz kəndində mal-heyvan saxlayanlar çoxdur. Bu heyvanlar örüşə gedən zaman bağın yanından keçirdi. Yeni əkilmiş tingləri həm onlardan, həm də tanımadığım, ağaclara istənilən zaman zərər verə biləcək yoldan keçənlərdən qorumalı idim. Aradan bir neçə il keçdikdən sonra istəyimə çatdım. Ağaclar böyüdükcə, onların zərər görmək ehtimalı da azaldı. Hazırda burada böyüyən ağaclar 5 hektar ərazini əhatə edir. Torpağın şoranlığı da gedib. İndi bu yaşıllıqların içərisində meyvə ağacları da az deyil. Ərik, gilənar, alma ağaclarının gətirdiyi meyvələrdən hər il əsgərlərimizə sovqat göndəririk, yoldan keçənlər də yeyirlər.

Hümbət kişi deyir ki, meyvə mövsümü olmasa belə, hər gün, hətta gecələr də bağa gəlir. Buradakı ağacların hamısına öz övladı kimi yanaşır, onların hər birini nəzərdən keçirir, vaxtında aqrotexniki qulluq göstərir. Sevinir ki, indi insanlar onun əkib-becərdiyi bağın meyvəsindən yeyir, sərinliyində istirahət edirlər. Həmsöhbətimiz bunu da bildirdi ki, yaşıllıqlara, təbiətə olan sevgisi yolun digər tərəfində salınmış yeni tut bağının da ona həvalə olunmasına imkan verib. Hümbət kişi isə bütün bunlarla yanaşı, magistral yoldan Böyükdüz kəndinə ayrılan avtomobil yolunun digər tərəfindəki boş şoranlıq ərazini göstərərək burada da yeni ağaclar əkmək istəyini dilə gətirir. Bu işin də öhdəsindən gələcəyinə, quru çöllük ərazini yaşıllıqlara çevirəcəyinə inanır. Biz isə, öz növbəmizdə, ona “Xeyirli olsun”, – deyirik.

İndi Kəngərli rayonunda çoxları Hümbət Həsənovu işgüzar, zəhmətkeş bağban kimi tanıyır. Ağac əkib-becərməyi, yaşıllıqlara qulluq etməyi artıq özünün həyat tərzinə çevirən bu maraqlı və zəhmətkeş insan çoxlarımız üçün nümunədir.

Sonda müsahibimiz dilə gətirə bilmədiyim – “İndiyədək tək əllə işləmək sizə çətinlik yaratmayıb ki?” – sualını sanki gözlərimdən oxuyub dedi: “Mən həyatda itirdiyim qoluma təəssüflənmirəm, əkib-böyütdüyüm ağacların qol-budaqları ilə nəfəs alıram”.

Səbuhi HƏSƏNOV

---

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə keçirilən “Bəhruz Kəngərli yaradıcılığı” mövzusunda maarifləndirici tədbiri giriş sözü ilə xidmətin əməkdaşı Samir Abbasov açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.*

## Dövlət Miqrasiya Xidmətində maarifləndirici tədbir



Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli çıxış edərək görkəmli rəssamın yaradıcılığından bəhs edib. Bildirilib ki, dahi rəssam müxtəlif mövzularda öz fırçasını sınasa da, bütün yaradıcılığı Vətənə, torpağa, xalqa, taleyimizə bağlı olub. Dövrünün qabaqcıl ziyalılarının portretləri üzərində işləyir, karikatura və satirik rəsmlər, memarlıq, mənzərə və məişət səhnələrini əks etdirən rəsm, akvarel və rəngkarlıq əsərləri yaradırdı. Onun yaradıcılığında bir sıra əsərlər də var ki, bütövlükdə, xalqımızın yaşadığı faciəli illərin ağrı-acılarını əks etdirir. Bəhruz Kəngərli 1918-1920-ci illərdə mənfur erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edib, öz ana torpaqlarından zorla qovulan və Naxçıvana pənah gətirən azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlər də yaradıb. Tarixi reallıqları özündə əks etdirən bu rəsm əsərləri daşnakların törətdikləri qırğınların, deportasiyaların, ümumən, millətimizin üzləşdiyi dərdlərin gələcək nəsillərə çatdırılmasında əvəzsiz mənbədir.

Qeyd edilib ki, Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılıb. 2002-ci il iyun ayının 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılışı olub. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Bu sərəncama əsasən Naxçıvan Muxtar Respublikasında da bir sıra işlər görülüb, Bəhruz Kəngərlinin Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanılan bir çox əsərlərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə verilib, ilk dəfə olaraq rəssamın əsərlərinin tam külliyyatı albom-kataloq şəklində buraxılıb. Eyni zamanda muxtar respublikada yubiley münasibətilə poçt markası, görkəmli rəssamın həyat və fəaliyyətinə həsr olunmuş sənədli film hazırlanıb. Bəhruz Kəngərli Muzeyinin yerləşdiyi bina yenidən qurulub, 2013-cü ildə istifadəyə verilib. Bu gün muzeydə realist rəssamın zəngin irsinə aid yüzlərlə eksponat mühafizə olunur.

Tədbirdə Bəhruz Kəngərlinin yaradıcılığı ilə bağlı videoslayd nümayiş etdirilib.

Sonra tədbir iştirakçıları Bəhruz Kəngərli Muzeyində olublar.

Nail ƏSGƏROV

---

## Sağlamlıq imkanları məhdud uşaqlar arasında sərgi-müsabiqə keçirilib



“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” bu kateqoriyadan olan uşaqların sosial reabilitasiyası sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq avqustun 25-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqların tullantılardan hazırlanmış əl işlərindən ibarət sərgi-müsabiqəsi keçirilib. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil olunan tədbirdə 20 müəllifin 150-dən çox əl işi nümayiş etdirilib.

Qaliblərə diplom və hədiyyələr, digər iştirakçılara isə fəxri fərmanlar təqdim olunub.

*Naxçıvan Muxtar Respublikası*
*Əmək və Əhalinin Sosial Müdafiəsi*
*Nazirliyinin mətbuat xidməti*

---

*Yazmasaq, olmur*

## Maralın buynuzunu qırmalımı, qırmamalımı?
### *(Satirik yanıltmac)*

Ötən günlərdə Naxçıvan şəhərinin “Böyük bağ” deyilən yaşıllıq massivində gördüyüm bir mənzərə məni yenidən folklorumuza müraciət etməyə vadar etdi. Daha doğrusu, yanıltmaclara. Nəyə görə yanıltmaclar yadıma düşdü deyə bilmərəm, ancaq onu deyə bilərəm ki, beynimdə əcaib-qəraib suallar dolaşırdı və bu suallara təkbaşına cavab tapmaq asan məsələ deyildi, qərara gəldim ki, mənim üçün “sirri-xuda” olan bəzi suallara sizinlə birgə cavab axtaraq.

Xülasə, bu “Böyük bağ” deyilən yerin bəzi guşələrində bağa xüsusi gözəllik bəxş edən heyvan fiqurları qoyulub. Qu quşu da var, qartal da, ceyran da, maral da. Ancaq o heyvanların ən başıbəlalısı maraldır. İndi soruşacaqsınız, niyə? O biri heyvanların ondan nəyi əskikdir ki?..

Bəla orasındadır ki, bu binəva maralın o birilərdən əskiyi yox, artığı var. Ağlınıza başqa şey gəlməsin, bu maralın buynuzları başına lap bəla olub. Gedib-gələn bu yazığın buynuzundan bir parça qoparmaq üçün sanki sıraya durub. Əlaqədar şəhər idarələrinin işçiləri nə qədər sement və quma güc versələr də, iki gündən sonra hər şey yenidən təkrar olunur. Maralın buynuzlarının yerində nazik dəmir çubuqlar görünür.



Bu bağda dincələn şəhər ağsaqqallarından biri dedi ki, ay bala, işin-gücün qurtarıb deyəsən? Bunları yerindən qoparmaq hər igidin işi deyil. Maralı buynuzlarından etməyə qolda güc, dizdə taqət lazımdı. Əvvəllər nər igidlər ad qazanmaq üçün buğa ilə, öküz ilə güləşərlərdi. İndi bu bağdakı bəzi “saqqallı uşaqların” ad qazanmaq üçün bu binəva maral balasından başqa heç bir heyvana gücü çatmır.

Ümumiyyətlə, bu bağda çox qəribə şeylər baş verir. Məsələn, bir valideyn yeniyetmə övladını zorla qu quşunun qanadlarının üzərinə çıxarmağa çalışır ki, onun şəklini telefonun yaddaşına köçürsün. Nəticədə, həmin quşun qanadları “iflas” edir. Daş qoçlarımız qəbirüstü abidələrdi. Ancaq valideynlərdən bəziləri elə bir öhdəlik götürüb ki, mütləq uşağı bu qoçların belində gəzdirməlidir. Belə olmaz axı!

Hələlik bir yanıltmac haqda danışmaq istədim. Ancaq bu şəhərdə yanıltmaclar istənilən qədərdi. Məsələn, skamyanın taxtalarını qoparmalımı, qoparmamalımı, tum qabıqlarını yerə tökməlimi, tökməməlimi, zibili yerə atmalımı, atmamalımı və sair. İnşallah, gələn görüşlərdə digər folklor nümunələrimiz haqda da məlumat verməyi qarşımda kredit borcu sayıram.

Səbuhi HÜSEYNOV


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 677